si olan müəssisəyə əmtəə nömrələnməsi və ştrixli kodlaşdırmanı həyata keçirən Milli Təşkilat tərəfindən verilir (Azərbaycanda bu GS1 Azərbaycan Cəmiyyətidir).
Bu SSCC nömrəsinin unikallığını təmin edir. GS1Azərbaycan Cəmiyyəti tərəfindən GCP 8 rəqəmdən ibarətdir, birinci üç rəqəmi - 476 prefiksidir.
Logistik vahidə verilmiş 4 rəqəm adətən logistik vahidi yığan müəəsisə tərəfindən ardıcıl qaydada verilmiş yükün seriya nömrəsidir.
C - nəzarət rəqəmi standart alqoritmlə 17 rəqəmin əsasında hesablanır.

SSCC nömrəsi və logistik vahidin bütün atributları etiketdə 2 cür göstərilir: insanoxunan tekst və GS1-128 simvolikalı ştrixkodlar şəklində.
SSCC identifikasiya nömrəsi standart nəqliyyat (logistik) etiketinin yeganə vacib elementidir.
Logistik etiket logistik vahidi təşkil edən müəssisə tərəfindən yaradılır. Hər logistik vahidin öz loqistik etiketi olmalıdır. Əgər logistik vahid ticarət vahidi kimi də istifadə olunursa, bu halda onun Qlobal Ticarət Əmtəə Nömrəsi (GTİN, ing) olmalıdır.

*Bu misalda GS1-128 ştrixkodu vahid çeşidin GTIN (AI 01) kodundan və partiyanın nömrəsindən (AI 10) ibarətdir.*






**GS1 Logistik Etiket**

**Sərbəst məlumat**
*Misal üçün, malgöndərənin adı, ünvanı, məhsulun təsviri*

**SSCC**
**347612345678900029**
**GTİN**
**4761234567894**
**Partiya 1728**
**Sayı 1969**
**Saxlama müddəti 01.12.2010**

(00)347612345678900029

(02)4761234567894(15)011220(10)1728(37)1969

4761234567894

| Məlumat | İdentifikatorlar (Aİ) | Məlumatın formatı |
|---|---|---|
| Poddonun identifikasiyası (mütləq) | 00 | n18 |
| Malın identifikasiyası (xüsusi hallarda) | | |
| - GS1 sistemində malın nömrəsi | 01 | n14 |
| - GS1 sistemində bağlamada olan malın nömrəsi | 02 | n14 |
| - Malın sayı | 37 | n8 |
| İstehsalçının əlavə məlumatı | | |
| - istehsalat tarixi | 11 | n6 |
| - saxlama müddəti | 15 | n6 |
| - partiyanın nömrəsi | 10 | an20 |
| - seriyanın nömrəsi | 21 | an20 |
| - çəki, kq | 310 | n6 |
| - sifarişin nömrəsi | 400 | an30 |
| - yükləyib göndərmək | 410 | n13 |